# Bütün Azərbaycan Çingizlə fəxr edir

**Əskər Çingiz Qurbanov doğma torpağını müdafiə edərkən qəhrəmancasına həlak olmuşdur. Çingiz böyük qəhrəmanlıq, igidlik göstərmişdir. Düşmənlə üz-üzə qalaraq qeyri-bərabər döyüşdə bir daha düşmənə gəstərdi ki, Azərbaycan əskəri nəyə qadirdir. O, geri çəkilmədi, qorxmadı, baxmayaraq ki, təkbaşına böyük diversant qrupu ilə üz-üzə qalmışdı. Son nəfəsinə qədər vuruşmuş, bir- neçə işğalçını məhv etmiş, şəhidlik zirvəsinə ucalmışdır. Biz Çingizlə fəxr edirik. Bütün Azərbaycan Çingizlə fəxr edir. Bu, bir daha göstərdi ki, Azərbaycan vətəndaşı, Azərbaycan gənci, əskəri heç vaxt bugünkü vəziyyətlə barışmayacaq. Bu, bir daha göstərdi ki, Azərbaycan dövlətinin güclü əskərləri var. O, böyük vətənpərvərlik, peşəkarlıq, rəşadət göstərmişdir.**

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

Ta qədim zamanlardan Vətəni sevən, onun hər qarışını göz-bəbəyi kimi qoruyan oğul və qızlarımız yetərincə olub. Bu gün də Azərbaycanımızın vətənpərvər oğul və qızları saysız-hesabsızdır.

Elə Qusar rayonu neçə-neçə elm, mədəniyyət xadiminin, eləcə də sərkərdənin, qəhrəmanın beşiyidir.

### *Qafqazda çar işğalına qarşı*

baş vermiş ilk silahlı üsyanın təşkilatçısı və rəhbəri olmuş Xuluqlu Hacı Məhəmməd, Azərbaycan Demokratik Respublikasını müdafiə etmək üçün dəfələrlə XI Qızıl ordunun dəstələri ilə fədakarcasına döyüşmüş Cağarlı Qaçaq Hətəm haqqında əfsanələr bu gün də yaşamaqdadır. II dünya müharibəsində göstərdiyi rəşadətə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş Mirzə Vəliyev, Adil Quliyev və A.İ.Rıbnikovun adları Qusarla bağlıdır. Qusarlı Salah Salahov Bolqarıstanın Qərhrəmanı fəxri adına layiq görülmüş, Həzrə kəndinin yaxınlığındakı Ukur kəndindən olan, ulu öndərimizin vətən qarşısında xidmətlərini həmişə yüksək qiymətləndirdiyi sərkərdə, general-mayor Mahmud Əbilovun adı diviziya komandiri kimi hərb tarixinə düşmüş, Sovet İttifaqı Qəhrəmanı Mirzə Dövlət oğlu



Vəliyev Qusarın Yuxarı Ləgər kəndindən könüllü olaraq cəbhəyə getmişdi. Şimali Qafqazdan başlayaraq Ukrayna, Belarusiya,Ruminya, Bolqarıstan və Macarıstanda qanlı döyüşlərdə fərqlənən topçular bölməsinin komandiri serjant Mirzə Vəliyev Çingizdən də gənc idi. Qusar həmçinin Milli Qəhrəman Fəxrəddin Musayevin vətənidir.

### *Belə ərənlərdən biri də*

**Qusar maili düzənliyində, rayon mərkəzindən 24 km şimal-qərbdə yerləşən, əsrarəngiz gözəlliklər və övliyalar məskəni olan Həzrə kəndində 24 noyabr 1994-cü ildə dünyaya göz açan Çingiz Qurbanovdur. Hələ uşaqlıq çağlarında Çingiz fəal bir vətəndaş olmaq arzusu ilə yaşayırdı. 2012-ci ildə Həzrə kənd tam orta məktəbini bitirərək elə həmin ili də Azərbaycan Texniki Universitetinə daxil oldu. Daha sonra, 2016-cı ildə həmin institutun məzunu olan Çingiz Qurbanov iyul ayında həqiqi hərbi xidmətə yollandı.**

Əskər Çingiz Qurbanov 2016-cı ilin dekabr ayının 29-da Azərbaycan - Ermənistan dövlət sərhədində ermənilərin kəşfiyyat qrupunun təxribatının qarşısını alan zaman, ermənilərin pusqusuna düşdü və şəhid oldu. Nəticədə Çingiz Qurbanovun nəşi düz 39 gün erməni tərəfində qaldı. Bütün beynəlxalq normaları pozan erməni tərəfi sonda 2017-ci il fevral ayının 5-i Çingiz Qurbanovun nəşini azərbaycan tərəfinə təhvil verdi. Fevralın 6-sı saat 09.30-da isə Çingiz Qurbanov ilə vida mərasimi baş tutdu. Vida mərasiminə Müdafiə Naziri general-polkovnik Zakir Həsənov və Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov habelə Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-leytenant Mədət Quliyev və bir sıra digər rəsmi şəxslər qatıldı. Mərasimdə çıxış edən general-polkovnik Zakir Həsənov Çingiz Qurbanovun qəhrəmanlığından danışıb.

**Daha sonra Çingiz Qurbanov doğulduğu Qusar şəhərində, Şəhidlər Xiyabanına son mənzilə yola salındı. Dəfn mərasiminə minlərlə şəhər sakini ilə yanaşı, şəhidin qulluq etdiyi hərbi hissənin əsgərləri və zabitləri də qatıldı. Dəfn mərasiminin sonunda yaylım atəşi açıldı və əsgər Qurbanov uğrunda şəhid olduğu torpağa tapşırıldı.**

### *2017-ci ilin 7 fevralında*

Azərbaycan Respublikası Prezidenti və Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin 1966 nömrəli sərəncamı ilə ona Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə əsgər Çingiz Salman oğlu Qurbanov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görüldü.

Fevralın 9-da isə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Çingiz Qurbanovun ailə üzvlərini qəbul etdi. İlham Əliyev qəbulun sonunda şəhidin atası Salman Qurbanova şəhid oğlunun layiq görüldüyü "Qızıl Ulduz" medalı ilə Bakı şəhərində yerləşən üç otaqlı mənzilin orderini təqdim etdi. Çingiz Qurbanov az yaşadı, amma mənalı bir ömür yolu keçdi. Elə bir yol ki, gələcək nəslə örnək ola biləcək yol.

Hörmətli Salman kişi və Nailə xanım! Sizin oğlunuz cismən aramızda olmasa da mənən onu tanıyanların qəlbində yaşayır. Başınızı dik tutun, sizin oğlunuz öz ölümüylə tarixdə yeni bir qəhrəmanlıq səhifəsi yazıb getdi...

Hörmətli Beydulla Qurbanov! Sizin qardaşınız Vətən uğrunda öz torpağında həlak olmuşdur. O, əsl qəhrəmanlıq, rəşadət göstərmişdir. Çingiz bütün gənclər üçün örnəkdir, nümunədir. Əmin ola bilərsən ki, onun əziz xatirəsi Azərbaycan xalqının qəlbindən heç vaxt silinməyəcəkdir.

Gözün aydın olsun Vətən! Sənin qoynunda, Böyük Qafqaz dağlarında, Şahdağda yeni bir zirvə də fəth edildi, "Çingiz zirvəsi" !...

**Bu gün fəth edilən "Çingiz zirvəsi"**
**Xalqın birliyindən güc alacaqdır.**
**Cəngə atılaraq Milli Ordumuz,**
**Azad edəcəkdir Qarabağımı,**
**İnanın qardaşlar, inanın dostlar,**
**Ən uca zirvədə qalib əskərin**
**Möhtəşəm heykəli ucalacaqdır!...**

Bəli, cəmi şəhidlərimizin qanı yerdə qalmayacaq. Onları unutmağa bizim bir an belə haqqımız yoxdur. Ona görə ki, onlar Azərbaycanımızın ərazi bütövlüyü uğrunda canlarından keçiblər.

Bəli gec-tez haqq, ədalət öz yerini tutacaqdır. Yenidən Qarabaq torpaqlarında həyat canlanacaq. Bu reallıqdır. Ona görə ki, bizim xalqın işi haqq işidir. "Haqq nazilər, amma üzülməz".

Nəhayət yazımı elə Çingiz Qurbanova həsr etdiyim aşağıdakı şeirimlə bitirmək istəyirəm .

### *Ay Çingiz*

**Düşmənləri qəltan etdin qanına,**
**Ürəklərdə yaşayırsan, ay Çingiz!**
**Çox dastan bağladıq sənin adına,**
**Ürəklərdə yaşayırsan, ay Çingiz!**

**Bayraq sevdin, o sevgidən güc aldın,**
**Vətən deyib yağılardan öc aldın.**
**Qəhrəmanlıq zirvəsinə ucaldın,**
**Ürəklərdə yaşayırsan, ay Çingiz!**

**Bu yurdun torpağı müdrik bir qoca,**
**Sənintək igidi unudar necə ?**
**Şəhidlik zirvəndir - ucadan-uca,**
**Ürəklərdə yaşayırsan, ay Çingiz!**

**Hünərlə, fərəhlə çatdın ad-sana,**
**Sanki bu ad-şançün gəldin dövrana.**
**Qürursan, fəxrsən Azərbaycana,**
**Ürəklərdə yaşayırsan, ay Çingiz!**

**Şixəmməd Seyidməmmədov,**
**Azərbaycan Yazıçılar Birliyinin üzvi, ADPU-nun Quba filialının "Təbiət fənləri və onun tədrisi metodikası" kafedrasının baş müəllimi**